Bu gün Gürcüstanın Marneuli rayonunda Azərbaycanın Milli Qəhrəmanı Murad Murzəyevə həsr olunmuş sənədli filmin təqdimatı olub.

Dalga tv "Report"-a istinadən xəbər verir ki, mərasimdə Azərbaycanın bu ölkədəki səfiri Dursun Həzənov, Marneuli Rayon İcra Hakimiyyətinin başçısı Merab Topçişvili, Gürcüstan parlamentinin deputatları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azerbaycanlıların Mədəniyyət Mərkəzinin gənclər şöbəsinin müdiri Nərgiz Əliyeva tədbiri açdıqdan sonra, Milli Məclis in deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış edib. Azərbaycan və gürcü xalqları arasındakı dostluq əlaqələrindən, oxşar xüsusiyyətlərdən danışan natiq deyib ki, bu gun hər iki olkənin ərazisi işğal olunub. O, hər iki ölkənin torpaqlarının tezliklə azad olunacağına əminliyini ifadə edib.

Ə.Amaşov bildirib ki, Mətbuat Şurası ilə ATXƏM-in birgə hazırladığı bu film tarixə 4 günlük müharibə kimi düşən bu film, əslində Azərbaycan Ordusunun qüdrətini bir daha nümayiş etdirdi.

Sonra filmin nümayişi olub. Filmdə Azərbaycan Ordusunun qüdrətindən, xalqımızın mübarizlik əzmindən geniş danışılır. Filmdə Milli qəhrəman Murad Mirzəyevin keçdiyi şərəfli həyat yolu, hərbi xidmət dövrü, döyüş ruhu, bacarıqlı komandirlik təcrünəsi geniş təhlil olunur. Filmdə Milli qəhrəmanın 2016-cı ilin aprel döyüşlərindəki qəhrəmanlığının ayrı ayrı aspektləri filmin sujet xettini təskil edir.

Sonra Gürcüstan parlamentinin deputatları Tamaz Naveriani, Ruslan Hacıyev, Agsaqqallar Şurasinin sədri İsaq Novruzov, gənclərden Elşən Çobanov çıxış edib, Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin qəhrəmanligindan, ölməzliyindən danışıblar. Şəhidlərimizin əziz xatirəsinin ürəklərdə daim yaşayacağı, torpaqlarımızın işgaldan azad olunacagı xüsusi qeyd olunub.